

ƏLƏDDİN ƏZİMLİ

## Sükut

Sükut -
daş dilidir.
Danışır, eşitmirik
dediklərini,
qəlbən söylədiklərini.
Vaxt gələcək,
biz də
sükuta qərq olacıyıq.
Bir anlıq yox,
əbədi sükuta.
Əlvida söyləyəndə həyata.

## Daş ömrü

Demə,
daş da
həsrətdən oxuyarmış
lap quşlar kimi.
Bəzən də ağlayarmış
buludlar kimi.
İnsanı
vəcdə gətirirmiş
vahiməli tələtümləri.
Naləsi
yenidən oyadarmış
sönmüş dərdləri.
Daş ömrü yaşamaq,
bulud olmaq,
bunu sınamaq
çox ağırmış,
yaman çətinmiş.

## Vətən

Qayadan
qırıq-qırıq qopan
mərmi timsalı
qəlpəsən, Vətən!
Yenə də
ruhuma çökmüsən,
gözümün önünə
gəlmisən, Vətən!
O qərib yurdda
tonqal çatacağam didərginlərin
isinə bilsinlər
oduna, Vətən!
Məni çağır çətində
gücüm çatana qədər,
yetim dadına, Vətən!

## Ayım - ulduzum

Hər gün boyu artan,
uzanan bu qız.
Zəriflik, gözəllik
qazanan bu qız,
yuxusunda
şadlıq görür, toy görür.
Yuxusunda gəlin köçür,
ev qurur.
İşin avand olsun,
yuxun çin olsun,
sevgin
səadətə səni aparan
ağappaq göyərçin olsun.
Yuxundan gur gəlsin
çal-çağır, qızım,
mənim şirin qızım,
mənim bal qızım.
Mənim nağıl qızım,
Ayım, ulduzum!

## Bitən yol

Bapbalaca
quş yuvası boydadır
ürəyin.
Amma dağdan ucadır
istəyin.
İllərdir
salmısan məni bəndə.
Heç özümdə bilmirəm
nə görmüşəm mən səndə?
İnan mənə,
arxanca gələcəyəm
ömrüm
sona yetənə qədər.
Bu yol bitənə qədər...

## Ovuda bilsəm

Bu sevginin
çiçək açan vaxtıdır.
Ürəkləri oynadıb,
səmalara baş vurub
qucaq açan vaxtıdır.
Bu sevgidən həyatıma
az da olsa, pay düşüb.
Evimə, eşiyimə,
xoş ovqatlı,
çal-çağırlı hay düşüb.
Bu eşq ilə
sönmüş duyğuları
oyada bilsəm,
nurlu həyat olaram.
Talehsiz bir insanı
ovuda bilsəm,
gör nə rahat olaram!

## Ocaq

İtirdim
dadını dünyanın,
çevrilmiş əsirimə,
bu qara sevdanın.
Gözləməkdən
əl çatmaz,
ün yetməz ağac oldum.
Bu çöllükdə
axırda kimsəsiz
bir yanar ocaq oldum.

## Qərib dünya

Bir ağrı duyuram,
məni
dağa-daşa salan
qəmli hisslərimdə.
Son zamanlar
uzaq düşüb
mənə doğma olan
kəslərim də.
Bir nisgil duyuram
qürbətə üz tutan
quşların səslərində.
Bütün sirləri
duya bilsəydim
nə olardı ki!
Onda yaşamağa
söylə, nə vardı ki!

## Qəribə yuxu

Bu gecə səhərə kimi,
kənddən şəhərə kimi
piyada yol getdim.
Alatoranda
oyandım yuxudan
quşların səsinə.
Düşündüm bircə an -
gedim hayana?
Səksəkə içində
təzədən
büründüm yorğana.

## Bürkülü gecə

Qəfil başladı yağış,
bir neçə an çəkdi.
Gözlənilmədən də
susdu,
kəsdi yağış.
Bürkü çökdü ətrafa.
Düşünməyə
hal qalmadı daha.
Qısıldım
bu gecəsinin
boğucu havasına.
Gecəni
keçirdim belə.
Əritdim qaranlığı
damcı-damcı,
gilə-gilə.

ədalət.-2016.-22 dekabr.-S.4.